AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ RƏYASƏT HEYƏTİ

# QƏRAR

№ 2/6

Bakı şəhəri 15 fevral 2017-ci il

AMEA üzvlüyünə seçkilərlə əlaqədar
AMEA-nın elmi bölmələrində ekspert
komissiyalarının yaradılması haqqında

Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti AMEA üzvlüyünə seçkilərin keçirilməsi haqqında 07 dekabr 2016-cı il tarixli 15/25 nömrəli və 14 dekabr 2016-cı il tarixli 16/4 nömrəli qərar qəbul etmiş və seçkilər haqqında respublika mətbuatında elan dərc edilmişdir. AMEA prezidentinin 17 yanvar 2017-ci il tarixli 78 nömrəli sərəncamına əsasən AMEA-nın elmi bölmələri "AMEA üzvlərinin və onun rəhbər orqanlarının seçkiləri haqqında Əsasnamə"yə uyğun olaraq AMEA üzvlüyünə təqdim olunmuş sənədlərin ekspertizasını təmin etmək məqsədilə bölmələr üzrə ekspert komissiyalarının tərkibini müəyyən edərək AMEA-nın Rəyasət Heyətinə təqdim etmişdir.

AMEA üzvlüyünə seçkilərlə əlaqədar təqdim olunmuş sənədlərin ekspertizasını təmin etmək məqsədilə AMEA elmi bölmələrinin vəsatətini nəzərə alaraq Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti **QƏRARA ALIR:**

1. Aşağıdakı tərkibdə ekspert komissiyaları yaradılsın:
   1.1. AMEA-nın Fizika-Riyaziyyat və Texnika Elmləri Bölməsi üzrə:
   akademik Çingiz Qacar, sədr
   akademik Telman Əliyev
   akademik Təyyar Cəfərov
   1.2. AMEA-nın Kimya Elmləri Bölməsi üzrə:
   akademik Tofiq Nağıyev, sədr
   akademik Ağadadaş Əliyev
   akademik Vaqif Abbasov
   1.3. AMEA-nın Yer Elmləri Bölməsi üzrə:

akademik İbrahim Quliyev, sədr

akademik Pərviz Məmmədov

akademik Vasif Babazadə

1.4. AMEA-nın Biologiya və Tibb Elmləri Bölməsi üzrə:

akademik İradə Hüseynova, sədr

akademik Böyükkişi Ağayev

akademik Tariyel Talıbov

1.5. AMEA-nın Humanitar Elmlər Bölməsi və İctimai Elmlər Bölməsi üzrə:

akademik Kamal Abdullayev, sədr

akademik Rafael Hüseynov

akademik Ziyad Səmədzadə.

2. Qərarın icrasına nəzarət AMEA-nın vitse-prezidenti vəzifəsini icra edən, akademik Dilqəm Tağıyevə həvalə edilsin.

AMEA-nın prezidenti akademik Akif Əlizadə

AMEA-nın akademik-katibi akademik Rasim Əliquliyev